15-21 dekabr 2022-ci il

# BAĞIMIZ

## Uşaqlıq illərimin ən şirin, ən unudulmaz anları – Vişnoyvka bağları

Həmin günəş, həmin torpaq,
Həmin evdi, həmin ocaq.
Gözlərimin qabağında
Həyətdəki çarhovuzdan,
Su daşıyan həmin uşaq.
Bir də həmin qum üstünə sərələnib,
qumda bişən salxımlardır,
salxım-salxım,
qucaq-qucaq.

Həmin quyu –
ətrafına yığılardıq,
fırfıra tək fırlanardıq.
O da bizə bir oyuncaq.
budur həmin külək döyən çardağımız,
Qalxıb ordan elektrik qatarını
izləyərdik, yorğun-arğın
işdən dönən anamızı
gözləyərdik.
Yığılardıq bu çardağa
İradə, Afət, Aidə,
Namiq, Xeyrulla, Səriyyə,
Almaz, Gülarə, Ədilə,
Mətanət, Elçin, Həbibə.
"Xan-vəzir", "Beş daş" oyunumuz,
Şən, qayğısız günlərimiz.
Maştağa – bazar yerimiz,
Buzovna – çimərliyimiz.
Qaynayıb daşardı çardaq,
Xatirə beşiyi çardaq.
Həmin bağdı,
hamısı həmin.

Niyə görən qum yollara
döşəyiblər asfaltları,
hörüblər daş hasarları?
Əncir, üzüm ağacların kəsib
küknar əkibdilər.
Bu günümlə dünənimin arasına
Görünməz sədd çəkibdilər.
Qonşular yad düşübdülər.

Boylanıram dünənimə
yana-yana.
Hər nə varsa mənə yaxın,
mənə doğma
təkcə məndən ayrı düşən
xatirimdən,
gözlərimdən silinməyən
uşaqlıqdır,
bir də əziz ata, ana.



*Nəzakət Məmmədova,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*Azərbaycan Respublikası*
*"Xatirə Kitabı" Redaksiyasının*
*baş redaktoru*